Dekabr 2016

# PwC Azerbaijan Times

## 34 saylı Buraxılış

### Buraxılışın əsas xəbərləri:

- **"Elektron ipoteka" sisteminin yaradılması haqqında Fərman imzalanmışdır**
- **"İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Nizamnaməsi"ndə dəyişiklik edilmişdir**
- **Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilmişdir**
- **Azərbaycan Tarif (qiymət) Şurası tərəfindən təbii qaz və elektrik enerjisi qiymətləri yenidən baxılmışdır**



pwc

Burada əks olunan məlumatlarla bağlı hər hansı bir sual yaranarsa, Marketinq və Kommunikasiya məsələləri üzrə Menecer Aysel Süleymanova ilə əlaqə saxlaya bilərsiniz.

aysel.suleymanova@az.pwc.com

**PwC Azərbaycan**

Landmark Ofis Plaza III, 12-ci mərtəbə
90A Nizami küçəsi
Bakı AZ1010, Azərbaycan

Tel: +994 12 497 2515
Faks: +994 12 497 7411

www.pwc.com/az

© 2016 PwC. Bu xəbərdə əks olunan informasiya yalnız ümumi məlumat xarakteri daşıyır və hərtərəfli hüquqi analiz təşkil etmir. Məlumatların dəqiqliyinə və tamlığına dair heç bir zəmanət verilmir. Hər hansı bir nəticəyə gəlib onu tətbiq etməzdən (və ya etməməzdən) əvvəl oxucular öz spesifik məsələləri üzrə mütəxəssislərin məsləhətini almalıdırlar. Oxucuların bu xəbərlərdəki məlumata əsaslanıb hər hansı bir nəticəyə gəlib onu tətbiq etmələrinə və ya hər hansı vacib məqamı nəzərdən qaçırmalarına görə biz heç bir məsuliyyət daşımırıq.

### *"Elektron ipoteka" sisteminin yaradılması haqqında Fərman imzalanmışdır*

Fərmanla Prezident sistemin Əsasnaməsini təsdiq edərək Nazirlər Kabinetinə normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılması üçün 3 (üç) ay müddətində vaxt vermişdir.

### *"İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Nizamnaməsi"ndə dəyişiklik edilmişdir*

Digər öhdəliklərinə əlavə olaraq Mərkəz Azərbaycan Respublikasında istehsal olunan mallar və həmin malların istehsalçıları barədə məlumatları əks etdirən, ən azı 3 (üç) dildə (Azərbaycan, ingilis və rus dillərində) fəaliyyət göstərən internet portalının fəaliyyətini, malların istehsalçıları tərəfindən məlumatların həmin portalda yerləşdirilməsi üçün təbliğat-təşviqat tədbirlərinin həyata keçirilməsini və portal barədə məlumatın kütləvi informasiya vasitələri ilə yayılmasını təmin edəcəkdir.

### *Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilmişdir*

Dəyişikliyə əsasən, bilə-bilə keyfiyyətsiz, normativ-texniki sənədlərin tələblərinə cavab verməyən, mənşəyi məlum olmayan, yararlılıq müddəti bitmiş, "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməmiş dərman vasitələrinin satışı, satış məqsədi ilə saxlanması və ya idxalı, habelə saxta dərman vasitələrinin istehsalı, satışı, satış məqsədi ilə saxlanması və ya idxalına görə 300 (üç yüz) manatdan 9000 (doqquz min) manatadək məbləğdə cərimə nəzərdə tutulmuşdur.

### *Azərbaycan Tarif (qiymət) Şurası tərəfindən təbii qaz və elektrik enerjisi qiymətləri yenidən baxılmışdır*

Yenilənmiş tariflər aşağıda göstərilmişdir:

- Təbii qazın pərakəndə satış tarifi əhali üzrə illik istehlak həcmi 1500 kubmetrədək olan istehlakçılar üçün dəyişdirilməyərək bir kubmetr üçün mövcud 10 qəpik səviyyəsində saxlanılıb, illik istehlak həcminin 1500 kubmetrdən çox olan hissəsi üçün isə 20 qəpik müəyyənləşdirilib. Təbii qazın tarifi elektrik enerjisi istehsalı müəssisələri üzrə min kubmetr üçün 120 manat, qeyri-əhali istehlakçı qrupu üzrə isə 200 manat səviyyəsində təsdiq edilib.

-Əhali üzrə aylıq elektrik enerjisi istehlakı 250 kilovat-saatadək olan istehlakçılar üçün dəyişdirilməyərək mövcud 7 qəpik səviyyəsində saxlanılıb, aylıq istehlak həcminin 250 kilovat-saatdan çox olan hissəsi üçün isə 11 qəpik müəyyənləşdirilib. Enerji təchizatı birbaşa 35 və 110 kilovoltluq xətlərlə həyata keçirilən, istehsal məqsədləri üçün orta aylıq enerji istehlakı 5 milyon kilovat-saatdan az olmayan kimya və alüminium sənayesi, dağ-mədən filizi əsasında poladəritmə istehsalı müəssisələri üçün elektrik enerjisinin bir kilovat-saat üçün topdansatış tarifi gecə və gündüz vaxtı üzrə müvafiq olaraq 2,8 qəpik və 5,8 qəpik təsdiq edilib. Özəl kiçik su elektrik stansiyaları üzrə elektrik enerjisinin istehsalçıdan satınalma tarifi bir kilovat-saat üçün 5 qəpik, külək elektrik stansiyaları üzrə 5,5 qəpik, digər alternativ və bərpa olunan mənbələr üzrə isə 5,7 qəpik müəyyənləşdirilib.